# ELM SAHƏSİ ÜZRƏ 2012-Cİ İLDƏ GÖRÜLMÜŞ İŞLƏRƏ DAİR HESABAT

2012-ci ildə aşağıdakı **tədbirlər** həyata keçirilmişdir:

1. 2012-ci il 23-24 fevral tarixlərində ölkəmizdə ilk dəfə olaraq **“Sabahın alimləri” Respublika Müsabiqəsi** keçirilmişdir. Bu müsabiqə hər il ABŞ-da keçirilən İntel İSEF - Beynəlxalq Elm və Mühəndislik Sərgisi çərçivəsində təşkil olunmuş və Azərbaycan məktəblilərinin seçilməsinə və həmin sərgiyə göndərilməsinə xidmət etmişdir.

Müsabiqənin həmtəşkilatçıları və sponsorları Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, “Mədəd” Təşkilatı və İntel korporasiyası olmuş, elmi dəstək isə Bakı Dövlət Universiteti, Qafqaz Universiteti və Sumqayıt Dövlət Universiteti tərəfindən verilmişdir.

Müsabiqədə Bakı və Sumqayıt şəhərlərində fəaliyyət göstərən 18 ümumi təhsil müəssisinin IX-XI sinif şagirdləri öz tədqiqat layihələri ilə iştirak etmişlər.

Müsabiqənin qaliblərinə diplom, medal, pul mükafatları və hədiyyələr təqdim edilmiş, bütün finalçılara isə iştirakçı sertifikatları verilmişdir.

Müsabiqənin qalibləri sırasından seçilmiş 5 nəfər Azərbaycan məktəblisi 2012-ci il 13-18 may tarixlərində ABŞ-ın Pensilvaniya ştatının Pittsburq şəhərində keçirilən İntel İSEF sərgisində iştirak etmişdir.

2. Avropa İttifaqının (Aİ) **TAİEX proqramı** çərçivəsində 30 yanvar - 3 fevral 2012-ci il tarixlərində Aİ-nin 3 (üç) ekspertinin iştirakı ilə “Avropa İttifaqının TAİEX proqramı çərçivəsində Azərbaycanın ali təhsil sisteminin tənzimlənməsi üzrə mövcud qanunvericiliyin qiymətləndirməsi” mövzusunda Seminar keçirilmişdir.

3. 2012-ci il 11 may tarixində Azərbaycan Respublikası Təhsil Nazirliyi və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin təşkilatçılığı ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin bazasında Tələbələrin XVII Respublika fənn olimpiadası keçirilmişdir. 12 fənn üzrə keçirilən bu olimpiadada 39 ali təhsil müəssisəsində təhsil alan 750 tələbə iştirak etmişdir. Həmin tələbələrdən 69-u əsas yerlərə, 51-i isə həvəsləndirici yerlərə layiq görülmüşdür.

4. 2012-ci il 1-3 oktyabr tarixlərində Azərbaycan Respublikası Təhsil Nazirliyi İSESKO-nun Tehrandakı Regional Nümayəndəliyi ilə birlikdə “Mərkəzi Asiya və Sakit Okean regionu ölkələrində Elmin təbliği” adlı regional seminar keçirmişdir.

5. 2012-ci il 18-19 dekabr tarixlərində Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə Doktorantların və gənc tədqiqatçıların XVII Respublika elmi konfransı keçirilmişdir. Konfransın açılışı “Avropa” otelində, 19 bölməsinin işi isə Azərbaycan Memarlıq və İnşaat Universitetində təşkil edilmişdir.

6. Ali təhsil müəssisələri tərəfindən 64 elmi konfrans, o cümlədən 25 beynəlxalq elmi konfrans keçirilmişdir.

**Şöbədə görülmüş işlər:**

1. Yeni normativ hüquqi sənədlərin hazırlanması istiqamətində iş aparılmış və aşağıdakılar normativ sənədlərin layihələri və mövcud sənədlərdə dəyişikliklər barədə təkliflər hazırlanmışdır:

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli 75 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"na əlavələr və dəyişikliklər edilməsi haqqında;
- Doktorantura təhsilinin məzmunu və təşkili Qaydaları;
- Ali təhsil müəssisələrində təhsilalanların elmi tədqiqat işinin təşkili haqqında Əsasnamə;
- Tələbə Elmi Cəmiyyəti haqqında Nümunəvi Əsasnamə;
- Ümumtəhsil məktəb kitabxanası haqqında Nümunəvi Əsasnamə;
- Ali təhsil müəssisəsinin kitabxanası haqqında Nümunəvi Əsasnamə;
- Ali təhsil müəssisəsinin nəzdində texnopark haqqında Əsasnamə;
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 119 nömrəli qərarı ilə təsdiq edilmiş "Müvafiq ixtisaslar üzrə ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunmağa əsas verən dünya fənn olimpiadalarının, yüksək səviyyəli beynəlxalq müsabiqələrin və yarışların siyahısı"nda dəyişikliklər edilməsi haqqında.

2. Təhsil Nazirliyinin Elmi-Metodik Şurasının yeni tərkibi hazırlanıb təsdiq edilmişdir.
3. Təhsil Nazirliyi sisteminə daxil olan ali təhsil və elmi tədqiqat müəssisələrinin doktoranturalarına qəbul planı təsdiq edilmiş və qəbul keçirilmişdir.
4. Ali təhsil müəssisələrinin elmi fəaliyyəti haqqında hesabatlar araşdırılmış və ümumiləşdirilmişdir.